# Nüfuzlu beynəlxalq platforma

**Bakı Enerji Həftəsi artıq təkcə sərgi və forum formatında keçirilən tədbir deyil, həm də Azərbaycanın enerji siyasətinin və qlobal enerji gündəliyinin vəhdət nöqtəsinə çevrilmiş nüfuzlu beynəlxalq platformadır.**



**Azər KƏRİMLİ,**
**Milli Məclisin deputatı.**

Azərbaycanın müstəqilliyinin ilk illərində qarşılaşdığı daxili siyasi və iqtisadi xaos şəraitində 1994-cü ildə keçirilən ilk neft sərgisi və onun davamı olan "Əsrin müqaviləsi" ölkənin gələcək müstəqilliyini təmin edən geosiyasi dönüş nöqtəsinə çevrildi. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində o zaman "riskli ölkə" kimi tanınan Azərbaycanın beynəlxalq enerji bazarına inteqrasiyası mümkün oldu. Həm daxili sabitliyin bərpası, həm də iqtisadi dirçəlişin əsasını qoyuldu.

Bu tarixi irsin davamı olaraq Prezident İlham Əliyev Azərbaycanın enerji resurslarını təkcə iqtisadi deyil, həm də geosiyasi alətə çevirməyi bacardı. Azərbaycan bu gün təkcə neft ixracatçısı deyil, həm də enerji tranziti və istehlakı üçün strateji aktora çevrilib.

Azərbaycanın ÜDM-də neft-qaz sektorunun payı 30 faizdən yuxarı olsa da, iqtisadiyyatın diversifikasiyası və maliyyə sabitliyi əsas prioritet olaraq qalır. Xarici borcun ÜDM-in cəmi 7 faizindən az olması və maliyyə ehtiyatlarının borcu 14 dəfə üstələməsi bu strategiyanın effektivliyini göstərir. Bu gün Azərbaycanda yoxsulluq 5 faizə endirilib, bu isə milli sərvətlərin ədalətli bölüşdürülməsinin nəticəsidir.

Eyni zamanda, insan kapitalına və təhsilə yönələn ciddi sərmayələr ölkənin sosial inkişaf göstəricilərini də müsbətə doğru dəyişib. Savadlılıq səviyyəsinin 100 faiz olması və enerjidən əldə edilən gəlirlərin bu sahəyə yönəldilməsi yeni inkişaf mərhələsinə zəmin yaradır.

Azərbaycan bu gün Avrasiyada enerji təhlükəsizliyinin təminatında əsas oyunçulardan birinə çevrilib. Cənub Qaz Dəhlizi kimi nəhəng layihə ilə Xəzər dənizindən İtaliyaya qədər uzanan enerji dəhlizi artıq 12 ölkəni əhatə edir və bu coğrafiya genişlənir. Bu isə Azərbaycanın beynəlxalq mövqelərini gücləndirməklə yanaşı, enerji təchizatında alternativ və etibarlı tərəfdaş kimi tanınmasına gətirib çıxarıb.

Bununla yanaşı, Prezidentin vurğuladığı kimi, Azərbaycanın enerji siyasəti hər zaman istehsalçı, tranzit və istehlakçı ölkələr arasında balansın qorunmasına əsaslanıb. Bu yanaşma gələcəkdə də qlobal enerji əməkdaşlığının əsas modelinə çevrilə bilər.

Ənənəvi enerji sektorunda qazandığı uğurlara baxmayaraq, Azərbaycan indi "yaşıl enerji"yə keçid prosesində də liderlik iddiası ilə çıxış edir. 2030-cu ilə qədər bərpaolunan enerji istehsal gücünün 6,5 giqavata çatdırılması planı, enerji balansında 35 faizdən çox "yaşıl enerji"nin payının olması ölkənin iddialı iqlim siyasətindən xəbər verir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, yaşıl enerji layihələrinə yatırımlar təkcə daxili tələbatı ödəmək deyil, eyni zamanda təbii qazın ixrac potensialını artırmaqla da strateji üstünlüklər yaradır. Beləliklə, "yaşıl enerji" və qaz ixracı paralel şəkildə inkişaf etdirilir ki, bu da Azərbaycanın enerji siyasətində çevik və praqmatik yanaşmasının təzahürüdür.

COP29-un Bakıda keçirilməsi və onun "Bakı sıçrayışı" adlandırılması da təsadüfi deyil. 100 milyard dollardan 300 milyarda qədər iqlim maliyyəsinin artırılması, karbon bazarının aktivləşdirilməsi və inkişafda olan ölkələrə dəstək paketi Azərbaycanın qlobal iqlim gündəliyinə verdiyi töhfənin göstəricisidir.

Prezident İlham Əliyevin Bakı Enerji Həftəsinin açılış mərasimində çıxışı bir daha təsdiqlədi ki, Azərbaycan enerji siyasətini milli maraqların və beynəlxalq öhdəliklərin vəhdətində həyata keçirir. Neft və qazla zəngin olan ölkənin, eyni zamanda, "yaşıl enerji" sahəsində qabaqcıl mövqe tutması, iqtisadi, sosial və ekoloji baxımdan dayanıqlı inkişaf strategiyasının nümunəsidir.

Enerji sahəsində qazandığı uğurlar və gələcək hədəfləri ilə Azərbaycan özünü regional lider olmaqdan qlobal enerji siyasətinin formalaşdırıcı aktoruna çevirməkdədir. Bu isə sadəcə enerji deyil, müstəqillik, suverenlik və gələcəyə inamın enerji ilə yazılmış tarixidir. ■